# “İRS” jurnalı fransız dilində

**Azərbaycanın tarixi, mədəniyyəti haqqında məlumatların dünyada yayılmasında mühüm rol oynayan “İRS” beynəlxalq jurnalının fransız dilində növbəti nömrəsi nəşr olunub.**




Nömrədə Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevanın “Faşizm üzərində qələbədə azərbaycanlıların böyük rolu” adlı məqaləsi dərc olunub. Məqalədə İkinci Dünya müharibəsində qazanılmış qələbədə xalqımızın, xüsusilə də Fransa Müqavimət Hərəkatında vuruşmuş azərbaycanlıların böyük töhfəsi və rolundan bəhs olunur.

Eləcə də Azərbaycanın musiqi tarixinə, bəstəkar qadınlarımıza, ölkəmizin XVIII –XIX əsrlərdəki milli memarlıq şedevrlərinə, dünyanın səkkizinci möcüzəsi sayılan Neft Daşları platformasına, ölkəmizin neft tarixinə həsr edilmiş məqalələr dərc olunub, Şəki Xan sarayı və ölkəmizin turistik imkanlarından bəhs edən məqalələr də yer alıb.

***XQ***

Xalq qəzeti .- 2026.- 13 yanvar (№06).- S.19.